

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 20 may 2026-cı il №34 (3036) https://mod.gov.az Qiymədi 30 qəpik

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

## Biz təkcə musiqimizdə və şeirlərimizdə deyil, eyni zamanda, memarlıqda öz əksini tapan qədim tariximizlə qürur duyuruq




***Mayın 18-də Bakıda Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) açılış mərasimi keçirilib.***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax sessiyada iştirak edən dövlət və hökumət başçılarını, nümayəndə heyətlərinin rəhbərlərini qarşılayıblar.

Qarşılanma mərasimindən sonra birgə foto çəkdirilib.

Sonra BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) tərəfindən hazırlanmış, WUF13-ün açılışına həsr olunmuş videoçarx nümayiş etdirilib və mədəni proqram təqdim olunub.

Dövlətimizin başçısı tədbirdə çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı**

- Zati-aliləri, xanımlar və cənablar, əziz qonaqlar.

Əvvəlcə mən Ümumdünya Şəhərsalma Forumunun bütün iştirakçılarını Bakıda salamlamaq və Foruma uğurlar arzulamaq istərdim. Biz yəqin ki, qeydiyyatdan keçmiş iştirakçıların rekord sayına nail olduq. Bu səhər mənə verilən məlumata görə, 182 ölkədən 45 mindən artıq qeydiyyata alınmış iştirakçımız var. Bununla belə, bu, ilyarım əvvəl Azərbaycanda keçirilmiş COP29-dan sonra ikinci ən böyük beynəlxalq tədbirdir və ümid edirəm ki, Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının nəticəsi COP29 qədər uğurlu olacaq. Düşünürəm ki, Bakıda bu günlər ərzində, ilk dəfə ölkəmizə səfər edən qonaqların əksər hissəsi ölkəmizi və şəhərimizi daha yaxşı tanımaq, şəhərsalmanın inkişafı sahəsində Azərbaycanda görülən işləri öz gözləri ilə görmək imkanını qazanacaqlar.

Azərbaycan Avropa ilə Asiya arasında yerləşir və hər zaman Şərqin Qərb ilə qovuşduğu məkan olub. Bu, həmçinin ölkəmizin memarlığında əks olunub. Beləliklə, əgər siz Bakıda İçərişəhərin qədim divarları arasında gəzsəniz, sonra bircə küçəni keçsəniz, özünüzü tamamilə müasir mühitdə hiss edəcəksiniz - vaxtilə üç kilometr olmuş Bakı Bulvarı hazırda 15 kilometrdən artıq tanınmış dənizkənarı məkandır.

**(Ardı 2-ci səhifədə)**

## Prezident İlham Əliyev "Euronews" televiziyasına müsahibə verib




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də "Euronews" televiziyasına müsahibə verib.

AZƏRTAC müsahibəni təqdim edir.

**Müxbir**: Cənab Prezident, hər zaman olduğu kimi Sizi yenidən görməyə çox şadıq. 182 ölkədən 40 mindən çox iştirakçı. Bu, COP29-dan sonra Azərbaycanda keçirilən ikinci ən böyük tədbirdir. WUF13-ə ev sahibliyi etmək Azərbaycanın dayanıqlı şəhərsalmanın gələcəyinin formalaşdırılmasında beynəlxalq roluna hansı töhfəni verir?

**Prezident İlham Əliyev:** Əlbəttə, WUF13-ə ev sahibliyi etmək bizim üçün böyük şərəfdir. Burada 182 ölkə təmsil olunur. Bu isə Azərbaycana göstərilən hörmətin bariz nümunəsidir. Bildiyimə görə, iştirakçıların sayı rekord həddə çatıb. Bu da həm mövzunun nə qədər mühüm olduğunu, həm də ev sahibi ölkənin geniş beynəlxalq əlaqələrə malik olduğunu nümayiş etdirir.

Təbii ki, bu forum bizim üçün indiyədək görülən işlər, gələcək planlarımız barədə auditoriyaya və beynəlxalq ictimaiyyətə məlumat vermək, eyni zamanda, tərəfdaşlarımızın təcrübəsindən yararlanmaq baxımından da bir fürsətdir. Çünki iştirak səviyyəsi, dövlət və hökumət başçılarının sayı göstərir ki, bu gün şəhərsalma məsələləri bir çox dünya liderlərinin diqqət yetirdiyi mövzulardan biridir. Mən çıxışımda da qeyd etdiyim kimi, tarixi və memarlıq irsinin qorunması ilə şəhərlərin müasirləşdirilməsi bir-biri ilə uzlaşmalıdır.

**Müxbir:** Aydındır ki, Azərbaycan Qarabağda və Şərqi Zəngəzurda "ağıllı şəhər" və yaşıl enerji layihələrini təqdim edib. Bunlar münaqişədən sonrakı dövrdə yenidən qurulan ərazilərdir. Sizcə, bu layihələr qlobal şəhər innovasiyalarına necə töhfə verə bilər? Başqalarının təcrübəsindən faydalanmaqdan danışdınız, bəs, onlar sizdən nə öyrənə bilər?

**Prezident İlham Əliyev:** Düşünürəm ki, biz bu günədək şəhər və kəndlərin sıfırdan qurulması ilə bağlı misilsiz təcrübə formalaşdırmışıq. Təəssüf ki, işğal altında olmuş ərazilərin genişmiqyaslı dağıntılara məruz qalması bizi buna vadar etdi. Mərhələli yanaşma, bəzi hallarda isə paralel inkişaf nəticəsində beş ilə artıq 85 min insanın doğma torpaqlarına qayıdışını təmin etmişik.

**(Ardı 3-cü səhifədə)**

## Günnüt əməliyyatı - Zəfərə aparan yol

20 may 2018-ci ildə erməni silahlı birləşmələri növbəti dəfə təxribata əl atdı. Amma bu dəfə Qarabağ bölgəsində deyil, Naxçıvanda Şərur rayonunun Azərbaycanla Ermənistanın şərti sərhəd ərazisində.

Şərur rayonu və muxtar respublika üçün strateji əhəmiyyət kəsb edən Günnüt kəndi hələ 1992-ci ildə Ermənistanın hərbi qüvvələri tərəfindən işğal olunmuşdu. Kəndin yaşayış binaları, bir çox obyektləri dağıdıldı, qədim yaşayış yerləri erməni vandalları tərəfindən xarabalığa çevrildi. Məktəb, tibb məntəqəsi, kitabxana, eləcə də qəbiristanlıq və məscid viran edildi. Əhali rayonun digər yaşayış məntəqələrinə, əksəriyyəti isə Şərur rayonundakı Mahmudkəndə köçməyə məcbur oldu.

Dağlıq Qarabağ bölgəsindən kənarda olan Günnüt kəndinin işğalı Ermənistan Respublikasının Azərbaycana qarşı təcavüz siyasətinin əyani nümayişi idi.

**(Ardı 5-ci səhifədə)**

## "EFES-2026" təlimində növbəti tapşırıqlar uğurla icra edilib





Türkiyədə keçirilən "EFES-2026" çoxmillətli birgə müştərək təlimi çərçivəsində növbəti tapşırıqlar uğurla tamamlanıb.

Müdafiə Nazirliyi xəbər verir ki, təlim planına uyğun olaraq, iştirakçı ölkələrin hərbi qulluqçuları dənizdən sahilə hücum tapşırığını icra ediblər.

Yüksəksürətli katerlərlə sahildə yerləşən şərti düşmən mövqelərinə yaxınlaşan qruplar intensiv atəş dəstəyi altında quruya çıxıb, istehkamları dəf edərək müdafiə mövqelərini qısa müddətdə zərərsizləşdiriblər. Aparılan effektiv əməliyyat nəticəsində sahil xətti tam təmizlənib və desant qüvvələrinin quruya çıxması üçün təhlükəsiz şərait yaradılıb.

* * *

"EFES-2026" çoxmillətli birgə təlimində növbəti mərhələ - gəminin ələ keçirilməsi tapşırığı uğurla yerinə yetirilib.

Əməliyyat planına uyğun olaraq, iştirakçı ölkələrin hava-desant bölmələri şərti düşmən gəmisinin ələ keçirilməsi tapşırığını icra ediblər.

Hücum helikopterləri ilə hədəfə yaxınlaşan qruplar, qısa müddət ərzində gəminin göyərtəsinə eniş həyata keçiriblər.

Yüksək peşəkarlıq və koordinasiya ilə icra edilən əməliyyat nəticəsində gəmi tam nəzarətə götürülüb, ekipaj üzvləri zərərsizləşdirilib və təhlükəsizlik tədbirləri təmin edilib.

# Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Biz təkcə musiqimizdə və şeirlərimizdə deyil, eyni zamanda, memarlıqda öz əksini tapan qədim tariximizlə qürur duyuruq

(Əvvəli 1-ci səhifədə)

Daha sonra isə Avropa memarları tərəfindən layihələndirilmiş və tikilmiş XIX əsrə aid binalar var. Bir sözlə, Bakıda, qədimliklə yenilik, tarixi irsimizin qorunması ilə şəhərsalmanın planlaşdırılması və müasirləşdirilməsi zəruriliyi arasında təbii vəhdət mövcuddur. Bu, həqiqətən əcdadlarımızın istedadının bariz nümunəsi, tarixi və memarlıq irsimizi necə qoruduğumuzun təzahürüdür. Şəhərsalma nəinki Bakı, o cümlədən Azərbaycanın bir çox şəhərləri üçün gündəlik əsaslarla işlədiyimiz məsələdir.

Bu il mənim Sərəncamıma əsasən, "Şəhərsalma və Memarlıq İli" elan edilmişdir. Mən bu tədbirin təşkilinə verilən dəstəyə, əməkdaşlığa və Forumun 13-cü Sessiyasına ev sahibliyi etmək üçün bu cür çox məsuliyyətli vəzifənin bizə həvalə edildiyinə görə təşəkkürümü bildirmək istəyirəm. 2022-ci ildən etibarən biz BMT-nin Məskunlaşma Proqramı ilə Azərbaycanda, uzun illər işğal altında olmuş şəhərlərdə - Ağdamda, Zəngilanda və Xankəndidə üç milli şəhərsalma forumlarını keçirmişik.

Bu gün qlobal toplantını təşkil edərək, biz şəhərsalmaya, onun inkişafına, insanların həyatını yaxşılaşdırmaq gündəliyinə və onların özlərini rahat hiss etmələri üçün əhalimizin bütün lazımi şəraitlərlə təmin olunmasına güclü sadiqliyimizi bir daha nümayiş etdiririk. Nəinki Bakı, o cümlədən Azərbaycanın bir çox qədim şəhərləri öz memarlığı ilə fərəhlənə bilər. Mən onlardan bəzilərini qeyd edəcəyəm. Vaxtilə Şirvanşahlar dövlətinin paytaxtı olan və XIV əsrdə yazıb-yaratmış dahi Azərbaycan şairi Nəsiminin doğulduğu yerdə - Şamaxıda 743-cü ildə tikilmiş dünyanın ən qədim məscidlərindən biri var. Bir vaxtlar Atabəylər dövlətinin paytaxtı olan, dahi memar Əcəmi Naxçıvaninin vətəni Naxçıvanda onun tikdiyi XII əsrə aid Möminə xatun türbəsi var. Dünyanın ən qədim şəhərlərindən biri olan, XII əsrdə yaşayıb-yaratmış digər dahi Azərbaycan şairi Nizami Gəncəvinin vətəni Gəncə bu gün Bakı kimi inkişaf edir və tarixi simasını qoruyur. Qafqaz Albaniyası dövlətinin paytaxtı Qəbələdə və əsas şəhərlərdən biri olan Şəkidə çoxsaylı tarixi abidələr var. Şəki şəhərinin yaxınlığında yerləşən Kiş kəndindəki kilsə ola bilsin, dünyadakı ən qədim kilsələrdən biridir. Əcdadlarımızın istedadını nümayiş etdirən digər bir misal Lahıc kəndidir. On beş əsr bundan əvvəl kənd yaradılanda insanlar bu gün də işləyən kanalizasiya sistemini və su xəttini çəkmişlər. Demək olar ki, 30 il ərzində işğal altında qalan Qarabağın tacı Şuşa indi sıfırdan yenidən qurulur və onun zədələnmiş qalası bərpa edilib.

Bizim əcdadlarımız tərəfindən tikilənlər təkcə mənim qeyd etdiyim abidələr deyil. Əlbəttə ki, VI əsrə aid Qız qalası ilə Bakı, işğala, dağıntılara və talana məruz qalan abidələr müxtəlif nəsillərə aid azərbaycanlılar tərəfindən yenidən tikilib və bərpa olunub, eyni zamanda, qorunaraq bu günədək saxlanılıb. Qeyd etdiyim bütün bu abidələri hər kəs ziyarət edərək görə bilər, onların içərisinə daxil olaraq onlara toxuna bilər. Hesab edirəm ki, bu, bizim tarixi irsimizə, mirasımıza münasibətimizin ən yaxşı göstəricisidir. Biz bununla fəxr edirik. Biz təkcə musiqimizdə və şeirlərimizdə deyil, eyni zamanda, memarlıqda öz əksini tapan qədim tariximizlə qürur duyuruq. Bizim vəzifəmiz bunları növbəti nəsillər üçün qoruyub saxlamaqdır və mən əminəm ki, növbəti nəsil də eyni cür edəcək.




Bu gün xüsusilə paytaxt şəhərlərində şəhər inkişafına olan bu zərurəti tam anlayışla qəbul edərək cəsarətli və ehtiyatlı olmalıyıq. Mən bunu bəzən Bakıdakı Formula 1 yarışı ilə müqayisə edirəm. Yeri gəlmişkən, Bakı Qran-Prisi şəhər halqasında keçirilən çox azsaylı yarışlardandır. Ən sürətli əsas yolda sürət saatda 300 kilometrdən çox olur, sonra isə pilotlar əyləcə basaraq bolidlərini eni yeddi metr olan küçəyə sığışdırmalıdırlar və bunu da qədim qala divarlarından bir metr məsafədə etməlidirlər. Beləliklə, pilotlar liderlər, qərar qəbul edənlər və inkişaf gündəliyini irəli aparanlar kimi cəsur və ehtiyatlı olmalıdırlar. Biz inkişafda, insanlarımız üçün daha yaxşı şəraitin yaradılmasında, müasirləşmədə cəsur olmalıyıq. Lakin eyni zamanda, tarixi irsimizin qorunmasına gəldikdə, çox ehtiyatlı olmalıyıq.

İndi hökumətimizin qarşısında duran əsas vəzifələrdən biri Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulmasıdır. Bu ərazi 30 il müddətində erməni işğalı altında idi və tamamilə dağıdılaraq məhv edilmişdir. Beynəlxalq müşahidəçilər və ziyarətçilər Ağdamı Xirosima ilə müqayisə edirdilər, onlar Ağdamı "Qafqazın Xirosiması" adlandırırdılar. Çünki şəhər, sadəcə, mövcud deyildi. Şəhər tamamilə yerləyeksan edilmişdir və o, Xirosimadan fərqli olaraq, atom bombasının atılması nəticəsində bir günə bu vəziyyətə düşməmişdir. Bu, 30 illik işğal ərzində edilmişdir və bu zaman binalar, tarixi binalar və ictimai binalar, evlər



tamamilə sökülərək dağıdılmışdır.

Beləliklə, hazırda Böyük Qayıdış Proqramı həyata keçirilir, şəhər və kəndlərin Baş planları hazırlanır. Mən, əlbəttə ki, çox rəqəm gətirə bilərəm, lakin yalnız ikisini qeyd edim. Artıq 5 il ərzində çəkdiyimiz tunellərin uzunluğu 70 kilometrdir. Digər beşi də tikiləcək. 500 körpüdən 435-i inşa olunub. Bununla yanaşı, elektrik stansiyaları, su təchizatı kəmərləri, su anbarları, evlər, məktəblər, xəstəxanalar, üç beynəlxalq hava limanı tikilib, dəmir yolları çəkilib. Bütün bunlar cəmi beş il ərzində inşa olunub.

Yalnız dağıtmaq, məhv etmək və əziyyətlər vermək üçün gələnlərdən fərqli olaraq, məhz torpağın yiyələri bu cür davranırlar. Bu gün 85 mindən artıq azərbaycanlı keçmişdə işğal altında olmuş ərazilərdə yaşayır. Onlar



işləyir, yaşayır, təhsil alır və onların məşğulluğu hökumətimizin ən mühüm hədəflərindən biridir.

Bununla belə, onlar üçün mənzillər və fərdi evlər, məktəb və xəstəxanalar tikmək üçün, əlbəttə, biz minalardan təmizlənməni aparmalı idik, lakin eyni zamanda, biz məşğulluq haqqında düşünməliyik. Həmin sahələrdə artıq salınmış və salınacaq çoxsaylı sənaye zonaları öz torpağında yaşamaq kimi fundamental hüququndan məhrum olmuş yüz minlərlə insanın sürətli qayıdışına birmənalı dəstək olacaq.

Bakı haqqında danışsaq, bir neçə əlavə məsələni də qeyd edim. Biz ətraf mühit sahəsində çox işləri görməli olduq. Bakı hələ 1846-cı ildə dünyada ilk dəfə neft hasil etmiş şəhər olub və sonra 180 il ərzində demək olar ki, bütün illərdə ətraf mühitin qorunmasına sıfır dərəcə riayət edilib. Beləliklə, Bakı çox çirklənib və Bakının Qara şəhər, Bibiheybət və Böyükşor kimi bəzi hissələrini qeyd etsəm, ola bilsin, əcnəbilər üçün bu, bir məna kəsb etmir. Lakin əgər vaxt tapıb həmin yerləri ziyarət etsəniz, bəzi videomateriallara və ya şəkillərə baxsanız, onların 20 il öncə və indi necə göründüyünü başa düşərsiniz və Bakıda ətraf mühitə uyğun məkanın yaradılması üçün görülmüş işləri təsəvvür edərsiniz. Çox çirklənmiş Qara şəhər əvəzinə bu gün şəhərsalmanın nümunəsi olan Ağ şəhəri görə bilərsiniz. Yeri gəlmişkən, o, çirkləndiyinə görə Qara şəhər adlanırdı. Bu, şəhər daxilində bir şəhər idi. Şəhərsalmanın digər təzahürü "Sea Breeze" istirahət məkanıdır və mən müsafirlərimizə, xüsusən də soyuq suda üzməyi sevənlərə oraya getməyi çox tövsiyə edirəm.

Onlardan bəzilərinin burada zalda əyləşdiyini görürəm və bu müasir şəhərsalmanın digər misalını gedib görmək olar. Son 20 il ərzində biz Bakıda 100 park və ictimai yer, bağlar yaratmışıq. Onların 19-u tam yenilənib. İctimai nəqliyyata, mikromobilliyə, metro və elektrik enerjisi ilə işləyən müasir avtobuslara sürətli çıxışı olan və ətraf mühitə uyğun şəhərlər paytaxt və nəinki paytaxt üçün, bütöv konsepsiyanın tərkib hissələri kimi icra olunur.

Söylədiyim kimi, Azərbaycanın bir çox yerlərində şəhərsalma çox sürətli inkişaf edir. Birmənalı olaraq, bu cür mühüm toplantı və BMT-dən olan dostlarımızın, səfərə gələn çoxsaylı qonaqların ekspert bacarıqları bizə daha çox öyrənmək, bir-birimizdən əldə etmək, müsbət təcrübə ilə tanışlıq üçün və həmçinin səhvlərimiz haqqında danışmaqda yardımçı olacaq. Şəhərsalma prosesində çox səhvlər olub və düşünürəm ki, həmin dövr artıq keçmişdə qaldı. Mən vaxtınızı çox almaq istəmirəm.

Mən, həmçinin Bakının bələdçisi kimi danışa bilərəm, lakin düşünürəm ki, sizin üçün onları öz gözünüzlə görsəniz daha yaxşı olar. Mən, Bakıda bütün qonaqlara xoş səfər arzu edirəm, Ümumdünya Şəhərsalma Foruмuna uğurlar diləyirəm. Sağ olun.

* * *

Sonra BMT-nin Baş katibi Antonio Quterreşin və BMT Baş Assambleyasının prezidenti Annalena Berbokun açılış mərasiminə ünvanladıqları videomüraciətləri nümayiş etdirilib.

* * *



Daha sonra BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) Assambleyasının prezidenti Nqa Kor Minqin və BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbaxın çıxışları dinlənilib.

* * *

Sonda Azərbaycanla bağlı videoçarx nümayiş olunub. Bununla da rəsmi açılış mərasimi başa çatıb.

**AZƏRTAC-ın materialları əsasında**

# Prezident İlham Əliyev "Euronews" televiziyasına müsahibə verib

(Əvvəli 1-ci səhifədə)

İlk növbədə, elektrik enerjisi məsələsi həll olundu. Bu günədək 307 meqavatlıq hidroenerji gücü istifadəyə verilib, hazırda 340 meqavat gücündə Günəş enerjisi layihələri isə inşa edilir. Bu həcm yalnız Qarabağ və Şərqi Zəngəzur üçün deyil, daha geniş ərazilər üçün də kifayət edəcək. Bununla yanaşı, elektrik şəbəkəsinin ölkənin ümumi enerji sistemi ilə inteqrasiyası təmin olunub. Ümumi uzunluğu 75 kilometr olan tunellərin 70 kilometri artıq istifadəyə verilib, 500 körpüdən 435-i artıq tikilib.

Dəmir yolları, məktəblər, xəstəxanalar - bütün bu işlər paralel şəkildə həyata keçirilir. Yenidənqurmanın ilk illərində əsas sərmayəni infrastrukturun yaradılmasına yatırmışdıq. Hazırda isə əsas sərmayələrimiz yaşayış sahələrinin tikintisinə yönəldilib - şəhərlərin Baş planları, "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyaları üzrə layihələr həyata keçirilir. Hər bir kənd üzrə planlar icra edilir. Beləliklə, hesab edirəm ki, bizim təcrübəmiz bənzər problemlərlə üzləşmiş ölkələrə yenidənqurma üçün bir nümunə ola bilər.

**Müxbir:** Yəni, dünyanın digər ölkələri üçün bir model rolunu oynaya bilər ki, bu da gözəl haldır. Azərbaycan bu gün Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verən ölkələrdən birinə çevrilib. Avropa enerji mənbələrini şaxələndirdiyi bir dövrdə Azərbaycanın rolunun necə inkişaf edəcəyini görürsünüz?




**Prezident İlham Əliyev:** Biz Avropa ilə enerji sahəsində əməkdaşlığa müəyyən müddət əvvəl başlamışıq. Xüsusilə 2020-ci ildən sonra - Cənub Qaz Dəhlizinin istifadəyə verilməsi ilə bu proses daha da sürətlənib. Hazırda həmin dəhliz vasitəsilə 16 ölkəyə təbii qaz ixrac olunur. Boru kəmərləri vasitəsilə qaz tədarük etdiyimiz ölkələrin sayına görə biz dünyada birinci yerdəyik. Bu rəqəm artmaqdadır. Avropa İttifaqının 10 üzv dövləti bizim müştərimizdir. Ümumilikdə isə 12 Avropa ölkəsi Azərbaycandan qaz alır. Ölkələrin sayı artır. Bizimlə əməkdaşlığa başlamaq istəyən ölkələrin müraciətlərinin sayı da artmaqdadır.

Xoşbəxtlikdən biz boru kəməri infrastrukturu və hasilat sahəsində ev tapşırığımızı vaxtında həyata keçirmişik. Hazırda istehsal səviyyəsi artmaqdadır. Tezliklə, yəqin ki, gələn ayın əvvəlində yeni yataqdan qaz hasilatına başlanılması ilə bağlı məlumat verəcəyik. Burada qarşılıqlı faydaya əsaslanan əməkdaşlıq mövcuddur. Bizim premium bazara ehtiyacımız var, o da Avropadır. Avropanın isə Azərbaycan kimi alternativ təchizat mənbəyinə ehtiyacı var. Beləliklə, biz səylərimizi birləşdirdik və Avropa Komissiyası ilə çox səmərəli əməkdaşlıq qurduq.

**Müxbir:** Təşəkkür edirəm. Siz həm regionda, həm onun hüdudlarından kənarda diplomatiya və sabitliyin fəal tərəfdarlarından olmusunuz. Hazırda Hörmüz böhranı regional və qlobal iqtisadiyyata təsir göstərir. Azərbaycan bu vəziyyətə necə yanaşır və bunun öhdəsindən necə gəlir?

**Prezident İlham Əliyev:** Təchizat zənciri baxımından bu böhran bizə ciddi təsir göstərmir. Çünki enerji təchizatı və marşrutların şaxələndirilməsi siyasəti bizim üçün bu günün məsələsi deyil. Bu siyasət uzun illərdir həyata keçirilir və tərəfdaşlarımız, eləcə də qonşu ölkələrlə birlikdə neft, qaz, elektrik enerjisi və nəqliyyat bağlılığı üzrə şaxələndirilmiş təchizat sistemi formalaşdırmağa nail olmuşuq.

Əlbəttə, Yaxın Şərqdə baş verən hadisələr müəyyən dərəcədə hər kəsə təsir edir. Bəziləri yüksək neft qiymətlərinin faydalı ola biləcəyini düşünə bilər. Bəli, elədir. Ancaq eyni zamanda, neft ehtiyatları ilə zəngin olan ölkələrin bir çoxu öz vəsaitlərini istiqrazlara yatırır, bir çoxu isə səhm bazarlarına investisiya edir. Belə qeyri-sabitlik baş verdiyi vaxt fond bazarları aşağı düşür. Nəticədə biz yüksək neft qiymətlərindən müəyyən gəlir əldə etsək də, bazarlarda investisiyalarımızda itki baş verir. Beləliklə, bu, hər kəsə təsir edir.

Lakin öz enerji layihələrimiz baxımından biz təhlükəsiz mövqedəyik. Siz də qeyd etdiyiniz kimi, biz daim diplomatiyanın tərəfdarıyıq. Diplomatiya olmadan biz öz ehtiyatlarımızı bazarlara çıxara bilməzdik. Çünki bunun üçün digər ölkələrin ərazisindən keçmək, qonşularla və qonşuların qonşuları ilə yaxşı münasibətlər qurmaq, çoxtərəfli əməkdaşlıq formatı formalaşdırmaq, istehsalçılar, tranzit ölkələr və istehlakçılar arasında qarşılıqlı uduşlu vəziyyət yaratmaq lazım idi ki, hər kəs qaydalara əməl etsin və gəlir qazansın.

Bu baxımdan düşünürəm ki, Azərbaycanın təcrübəsi faydalı ola bilər. Böhran həll olunduqdan sonra, - bu, tez və ya gec baş verəcək, - yəqin ki, yeni bir vəziyyət yaranacaq. Bir çox ölkələr enerji siyasətlərini və enerji ehtiyatlarının çatdırılması yollarını yenidən nəzərdən keçirəcəklər. Çox güman ki, Azərbaycanın coğrafiyası və mövcud resursları bu gün olduğundan daha çox tələb olunacaq.

**Müxbir:** Cənab Prezident, Sizinlə söhbət etmək həmişə böyük məmnuniyyətdir.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. Sizi yenidən Azərbaycanda görməkdən məmnunam.

**Müxbir:** Geri qayıtmaq həmişə çox xoşdur. Müsahibəyə görə təşəkkür edirəm.

# Müdafiə naziri Milli qəhrəmanlarımızın ailələrinə medallar təqdim edib







Mayın 18-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov, müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev, müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Namiq İslamzadə və Nazirliyin digər vəzifəli şəxsləri şəhid Milli qəhrəmanlar Qurbanov Vaqif Bəxtiyar oğlu və Teymurov Pəncəli Nurməmməd oğlunun ailə üzvləri ilə görüşüblər.

Müdafiə Nazirliyində keçirilən görüşdə general-polkovnik Z.Həsənov döyüşlərdə şəhid olanların ailələrinə başsağlığı verib.



Müdafiə naziri Vətən uğrunda şəhid olanların xatirəsinin hər zaman uca tutulduğunu, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müvafiq tapşırıqlarına əsasən şəhid ailələrinə diqqət və qayğı göstərilməsinin daim prioritet məsələ olduğunu xüsusi vurğulayıb.

Nazir Şanlı Zəfərimizdən söz açıb, şəhidlərimizin döyüş meydanında göstərdikləri qəhrəmanlıq, şücaət və igidlik nümunələrindən qürurla danışıb.

Bildirilib ki, Azərbaycan Respublikasının müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və döyüş tapşırıqlarını yerinə yetirərkən göstərdikləri igidliyə görə ilk hərbi təyyarəçi Qurbanov Vaqif Bəxtiyar oğlu və Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçusu Teymurov Pəncəli Nurməmməd oğlu Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı ilə təltif olunublar.

Təltif olunma barədə sərəncam oxunduqdan sonra general-polkovnik Z.Həsənov tərəfindən şəhid qəhrəmanlarımızın ailə üzvlərinə "Qızıl Ulduz" medalı və vəsiqəsi təqdim edilib.

Sonda şəhidlərin ailə üzvləri göstərilən diqqət və qayğıya, həmçinin şəhidlərimizin xatirəsinin daim uca tutulduğuna görə ölkə və Müdafiə Nazirliyinin rəhbərliklərinə minnətdarlıqlarını bildiriblər.



# Beynəlxalq Muzeylər Gününə həsr olunmuş “Muzeylər dünənimiz və sabahımızdır” adlı tədbir keçirildi



Azərbaycan Hərb Tarixi Muzeyində 18 May - Beynəlxalq Muzeylər Gününə həsr olunmuş "Muzeylər dünənimiz və sabahımızdır" adlı tədbir keçirildi. Tədbirdə Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin nümayəndələri, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivi iştirak etdilər.

Əvvəlcə tədbirdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü uğrunda canından keçən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi ehtiyatda olan polkovnik Elşad Pənahov tədbiri açaraq çıxışına Ulu Öndərin muzeylər haqqında söylədiyi "Muzeylər xalqın tarixini, milli-mənəvi dəyərlərini yaşadan və gələcək nəsillərə çatdıran müqəddəs ocaqdır" kəlamı ilə başladı. "Muzeylər nəsillər və tarixi mərhələlər arasında körpü və ən yaxşı bələdçidir. Cəmiyyətdə ayrı-ayrı xalqların əsrlər boyu yaratmış olduqları maddi və mənəvi irsi bir məbəd kimi qoruyan muzeylər onu keçmişdən gələcəyə ötürmək üçün mühüm missiyanı yerinə yetirir. "Muzey" yunan sözü olub "muzalar məbədi" deməkdir. Muzalar qədim yunan mifologiyasında incəsənət və elm ilahələri hesab olunardı. Sonralar maddi və mənəvi mədəniyyət abidələrini komplektləşdirən, tədqiq və təbliğ edən müəssisələr belə adlandırılmışdır. Ölkəmizdə dövlət səviyyəsində 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyəti dövründə təməli qoyulmuş ilk muzey 1920-ci il oktyabrın 25-də Azərbaycan Dövlət Muzeyi kimi fəaliyyət göstərmişdir. 1923-cü ildə muzeyə direktor təyin edilmiş Davud Şərifovun səyi ilə Moskva, Sankt-Peterburq və Tiflisdən Azərbaycana aid bir sıra eksponatlar, o cümlədən, xanlıqların bayraqları, silahlar, rəsm əsərləri muzeyə qaytarılmışdır. Bu gün milli yaddaşın qorunmasında, qəhrəmanlıq dolu keçmişimizin, hərb tariximizə dair qiymətli təbliqi nümunələrin və sənədlərin mühafizə və nümayiş etdirilməsində, böyüməkdə olan nəsillərdə vətənpərvərlik duyğularının aşılanmasında Müdafiə Nazirliyinin tabeçiliyində fəaliyyət göstərən Azərbaycan Hərb Tarixi Muzeyinin böyük əhəmiyyəti var. Muzey xalqımızın şanlı hərb tarixinin gələcək nəsillərə çatdırılmasında mühüm rol oynayır".

Tədbir muzeyin tədqiqatçı-baş elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, professor Hacı Həsənovun "Tariximizi yaşadan müqəddəs məkanlar" adlı çıxışı ilə davam etdi.

Sonra tədbir iştirakçılarına 18 May - Beynəlxalq Muzeylər Gününün yaradılması tarixindən bəhs edən qısametrajlı sənədli film nümayiş olundu.

Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Kərəm Rzayev Azərbaycan Hərb Tarixi Muzeyinin kollektivini 18 May - Beynəlxaq Muzeylər Günü münasibətilə təbrik edərək, onlara xalqımızın döyüş salnaməsinin, sərkərdəlik tarixinin yaradılması, təbliğ olunması işlərində uğurlar arzuladı.

Sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivi vətənpərvərliyi tərənnüm edən musiqi nömrələri təqdim etdilər.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**







## “Türkiyə regiona rəqabət deyil, əməkdaşlıq arealı kimi baxır”

Yaxın Şərqdə rəqabət və əməkdaşlığı birləşdirən yeni müdafiə və təhlükəsizlik sisteminin formalaşması fonunda Türkiyə konstruktiv, balanslaşdırıcı və sabitliyə yönəlmiş dövlət rolunu oynamağa davam edir.

Bu barədə Türkiyənin milli müdafiə naziri Yaşar Güler Qətərin "Əl-Şərq" qəzetinə verdiyi müsahibədə bildirib.

Onun sözlərinə görə, Ankara sərhədlərinin qorunmasını, iqtisadi inteqrasiyanın gücləndirilməsini və enerji təhlükəsizliyinin təmin edilməsini prioritet hesab edir. "Bu məqsədlərə nail olunması müəyyən risklərlə əlaqələndirilir. Körfəzdə təhdidlərin artan qavranılması yeni, daha balanslı təhlükəsizlik arxitekturası axtarışını sürətləndirir", - deyə o qeyd edib.

Nazir vurğulayıb ki, Türkiyə regiona rəqabət arenası kimi deyil, əməkdaşlıq arealı kimi baxır: "Türkiyənin yanaşmaları dialoq və qarşılıqlı fayda əsasında formalaşır".

Y.Güler qeyd edib ki, bu mərhələdə müdafiə texnologiyaları və istehsal gücləri dövlətlərin strateji mövqeyini müəyyən edən vacib amillərə çevrilir.

O, həmçinin əmin edib ki, Türkiyə bütün mövcud diplomatik vasitələrdən və vasitəçilik imkanlarından istifadə edərək regional sabitliyə töhfə verməyə davam edəcək.

## ANAMA: 57 mina və 378 digər partlayıcı sursat zərərsizləşdirilib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən mayın 11-17-də icra edilən əməliyyatlara dair məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən piyada əleyhinə 32, tank əleyhinə 25 mina və 378 digər partlayıcı sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həmin müddətdə 1266,9 hektar ərazi mina və digər partlayıcı sursatlardan təmizlənib.

### *Nümunəvi xidmət*

## “Vətənə xidmət - həyat amalım”

Vətənpərvərlik insanın mənəvi dünyasının ən uca zirvəsidir. Bu hiss hər kəsdə olsa da, hərbçilərin həyatında xüsusi yer tutur. Onlar üçün vətənpərvərlik və Vətənin qorunması həm də məsuliyyət daşıdıqları müqəddəs vəzifədir. Gizir Ceyhun Abbasovun xidmət yolu vətənpərvərlik adlı bu ali duyğunun canlı təcəssümüdür.

Gizir Ceyhun Vidadi oğlu Abbasov 1993-cü il mayın 15-də Gəncə şəhərində anadan olub. Uşaqlıq illəri Vətənimizin ağır günlərinə təsadüf edib. Həmin dövrdə ərazilərimizin işğalı, düşmənin soydaşlarımıza qarşı həyata keçirdiyi xüsusi qəddarlıq, yaşanan çətinliklər, televiziyada gördükləri və eşitdikləri onda Vətənə qarşı xüsusi bir bağlılıq formalaşdırıb. Hələ gənc yaşlarından hərb sənətinə maraq göstərərək, Vətənə xidmət etməyi həyat amalı seçib.

Gizir qeyd etdi ki, Vətən mənim üçün sadəcə torpaq deyil, canımdan əziz müqəddəslikdir. "Onu qorumaq mənim üçün şərəfdir. Vətənimi canımdan çox sevirəm və bu sevgi mənim ən böyük gücümdür".

Vətən qarşısındakı müqəddəs borcunu başa vurduqdan sonra 2014-cü ildə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətə başlayıb və ilk illərdən etibarən intizamı, çalışqanlığı ilə seçilib.

Xidmətinin ilk dövründə qazandığı uğurdan qürurla söz açan gizir deyir ki, 2015-ci ildə keçirilən "Ən yaxşı top komandiri" adına layiq görülməsi onun öz sevimli peşəsinə daha da məsuliyyətlə yanaşmasına təkan verib. 2016-cı ilin Aprel hadisələri isə onun həyatında xüsusi mərhələ olub. Döyüşlərdə nümayiş etdirdiyi cəsarət və qətiyyət Vətənə olan sevgisinin əməli sübutuna çevrilib. Xidmətinə görə yüksək qiymətləndirilərək, Azərbaycan Respublikasının Prezidenti tərəfindən Fəxri fərmanla təltif olunub.



- Aprel döyüşləri həyatımın ən unudulmaz anları oldu. Həmin günlərdə biz yalnız döyüş tapşırığını yerinə yetirmirdik, eyni zamanda, Vətənimizin hər qarışı üçün vuruşurduq. Düşmən qarşısından bir addım belə geri çəkilməmək əzmimiz bizi daha da gücləndirirdi. Vətənə sevgimiz hər atdığımız addımda bizə güc verirdi. Bu döyüşlər mənim yaddaşımda əbədi qalacaq, - gizir Abbasov dedi.

Ceyhun Abbasov 2017-ci ildə "Gizir hazırlığı kursu"nu bitirib. Xidmətdə peşəkarlığını daim artıran Ceyhun sonrakı illərdə də müxtəlif hərbi sahələrdə özünü doğruldub, tank əleyhinə idarə olunan raket kompleksinin komandiri kimi məsul vəzifəni layiqincə yerinə yetirib.

Hərb tarixi salnaməmizə qızıl hərflərlə yazılan 44 günlük Vətən müharibəsi onun da həyatında silinməz izlər buraxıb. Gizir Ceyhun Abbasov döyüş tapşırıqlarını layiqincə yerinə yetirərək, işğal altındakı torpaqlarımızın azadlığı uğrunda aparılan əməliyyatlarda fəallıq göstərib. Döyüş yolu Füzulinin Qaraxanbəyli kəndi istiqamətindən başlayaraq Şuşaya qədər uzanan gizir dedi:

- Vətən müharibəsində iştirakım həyatımın ən qürurlu dönəmidir. Biz hər an Ali Baş Komandanın əmrinə sadiq qalaraq irəli gedirdik. Hər bir əsgərin gözündə Vətənə olan sevgi və qələbə əzmi açıq-aydın görünürdü. Ölüm və həyat bir addımlıq məsafədə idi, amma qorxu yox idi, yalnız inam vardı. Şəhidlərimizin qanı bahasına qazanılan bu qələbə bizim üçün əbədi bir anddır.

2023-cü ilin sentyabrında keçirilən antiterror əməliyyatında da o, öz peşəkarlığını bir daha nümayiş etdirərək, qarşıya qoyulan tapşırıqların icrasında mühüm rol oynayıb.

Hazırda döyüş maşını komandiri kimi xidmətini davam etdirən gizir Ceyhun Abbasov öz bilik və bacarıqları ilə seçilən hərbçilərdəndir. Vətənə övladlıq borcunu layaqətlə yerinə yetirməyi qarşısına məqsəd qoyaraq bütün tapşırıqların öhdəsindən bacarıqla gəlir.

Vətən sevgisini xidməti ilə sübut edən gizir Ceyhun Abbasov üçün bu yolun mahiyyəti sadədir: "Vətənə xidmət - həyat amalım".

**Kapitan**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

# Günnüt əməliyyatı - Zəfərə aparan yol



(Əvvəli 1-ci səhifədə)

Dağlıq Qarabağla bərabər, bütünlükdə Naxçıvanı da işğal etmək niyyətini erməni millətçi dairələri heç zaman gizlətmirdilər. Əslində, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin icrasına ötən əsrin sonlarından başlanmışdı. 1990-cı il yanvarın 19-da Naxçıvana məxsus olan Kərki kəndinin işğalı da bu siyasətin tərkib hissəsi idi.

Erməni hərbi birləşmələrinin nəzarəti altında qalmış Günnüt kəndi və onun ətrafındakı strateji yüksəkliklərin azad edilməsi Əlahiddə Ümumqoşun Ordu tərəfindən uğurla həyata keçirildi. Naxçıvanda yerləşən Əlahiddə Ümumqoşun Ordunun qüvvələri Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin 18 dekabr 2013-cü il tarixli fərmanı əsasında Muxtar Respublika ərazisində mövcud olan hərbi birliyin bazasında yaradılmışdı.

Ali Baş Komandanın əmrinə əsasən, əks-həmlə əməliyyatının keçirilməsinə qərar verildi. Çünki artıq vədə yetişmişdi.

2018-ci il mayın 20-dən 27-dək Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti uğurlu əməliyyat keçirərək Günnüt kəndi, Ağbulaq yüksəkliyi, Qızılqaya və Qaraqaya dağlarını azad etdi. Dərələyəz mahalının Arpa kəndi isə Azərbaycan Ordusunun nəzarəti altına keçdi. Günnüt əməliyyatı hərbi komandanlıq tərəfindən peşəkarlıqla hazırlanmış plan idi. Əməliyyatın hazırlıq prosesi tam məxfi şəraitdə icra olunmuşdu. Bölmələrimizin şəxsi heyəti çətin döyüş tapşırığını canını və qanını əsirgəmədən uğurla yerinə yetirdi.

Mayın 27-nə qədər davam edən əməliyyatda hərbi qüvvələrin qarşısına qoyulmuş tapşırıq qüsursuz şəkildə yerinə yetirildi. Nəticədə Günnüt kəndi ilə birlikdə 11 min hektar ərazi azad edildi. Kəndin ətrafındakı Xunut, Mehridağ, Qızılqaya yüksəklikləri Ümumqoşun Ordu bölmələrinin nəzarəti altına keçdi. Azad olunmuş ərazilərin 8 min hektarı əkinçilik üçün yararlı olan torpaqlar idi. Qızılqaya yüksəkliyinin ələ keçirilməsi isə Ermənistan ərazisindən keçən Yexeqnadzor-Gorus-Laçın-Xankəndi yoluna nəzarəti asanlaşdırdı.

Günnüt kəndinin erməni işğalından azad edilməsi bölgədə strateji üstünlüyün qazanılmasından əlavə, Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyi və təsərrüfat həyatı üçün də böyük əhəmiyyət kəsb etdi. Bu kəndin və onun ətrafında olan ərazilərin erməni nəzarətindən çıxarılması ilə Şərur və Sədərək rayonlarını bütünlüklə, Kəngərli rayonunu isə qismən su ilə təmin edən Arpaçay su dəryaçasının da təhlükəsizliyi təmin edildi. Ermənilər bu su dəryaçasını da partlatmaqla Naxçıvan əhalisinin və torpaqlarının su ilə təmin edilməsini çətinləşdirmək istəyirdilər. Kəndin azad edilməsi ilə Naxçıvanın elektrik enerjisini təmin edən su elektrik stansiyalarının təhlükəsizliyi də təmin olundu.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev 2018-ci il iyun ayının 26-da Naxçıvana növbəti səfəri zamanı Günnüt döyüşünün nəticələrini belə qiymətləndirdi: "Bu bayram ərəfəsində-keçən ay Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu tərəfindən aparılmış uğurlu əməliyyat nəticəsində,1990-cı illərin əvvəllərində ermənilər tərəfindən zəbt edilmiş 11 min hektar torpaq azad edildi. Çox böyük mühəndislik və kəşfiyyat işləri aparıldı. Naxçıvan əməliyyatı yüksək məharətlə, peşəkarlıqla həyata keçirildi. Azərbaycan hərbçisi bir daha qəhrəmanlıq, rəşadət göstərmişdir".

26 ildən sonra düşmənin ayağını bu torpaqlardan kəsmək şərəfinə nail olan görünməz qəhrəmanlarımız həmin əməliyyatı belə xatırlayırlar:

- Düşmən oyandı və qarşısında bizi gördü. Çoxlu əsgər gətirdilər postlarına, çox sayda qüvvələr gəldi və eyni istiqamətlərdən deyil, başqa istiqamətlərdən də atəş açmağa başladılar. Səngərimiz belə yox idi. Buna baxmayaraq biz geri çəkilmədik.

- Günnüt əməliyyatı zamanı əldə edilən uğur Ermənistan ordusunun şəxsi heyətinin hətta erməni əhalisinin vahiməyə düşməsinə səbəb oldu. Hərbçilərimizin peşəkarlığı öz sözünü dedi. Bir daha Azərbaycan Ordusu güc və bacarığını düşmənə nümayiş etdirdi. Onun qarşısında keçən əsrin sonlarındakı pərakəndə yox, hazırlıqlı ordu dayanmışdı. Bir həftə davam edən əməliyyat həm də sonrakı uğurlara da cığır açdı-44 gün ərzində çəkilən Zəfər yolunun cığırını.

Doğrudan da, Əlahiddə Ümumqoşun Ordu qüvvələrinin əldə etdiyi nəticələr sevindirici idi.

2018-ci ilin mayında baş vermiş bu tarixi hadisə bir tərəfdən Azərbaycan Ordusunun güc və qüdrətinin təsdiqi idisə, digər tərəfdən də dövlət rəhbərliyinin Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi istiqamətində yürütdüyü qətiyyətli siyasətin nümayişi idi.

Əməliyyatın uğurla başa çatması ordumuzun özünə inamını, döyüş əzmini daha da artırdı. Aprel döyüşlərindən sonra yüksələn döyüş əzmi Günnüt əməliyyatı ilə öz kulminasiyasına çatdı və 44 günlük müharibədə tarixi Qələbə üçün zəmin yaratdı.

Bir sözlə, Günnüt əməliyyatı inkişafda olan Azərbaycan Ordusunun gücünün və qüdrətinin yeni bir ifadəsi oldu. Bu əməliyyatın gedişi, idarə edilməsi, komandir heyətinin səriştəsi və məharəti göstərdi ki, Azərbaycan Ordusu daha böyük zəfərlərin əldə edilməsinə qadirdir.

**Sevda AŞIROVA**
**"Azərbaycan Ordusu"**

# Silah və texnikanın varlığı və sazlığı yüksək döyüş hazırlığının mütləq şərtidir

Azərbaycan Ordusunun döyüşəparma və özünümüdafiə qabiliyyətinin yüksək səviyyədə saxlanılmasında şəxsi heyətin ona təhkim olunmuş silah və hərbi texnikaya vaxtında və düzgün texniki qulluq göstərməsi mühüm fəaliyyətlər planından biri olaraq, böyük əhəmiyyətə malikdir. Belə ki, mövsümi dəyişikliklər ilə əlaqədar olaraq, həyata keçirilən profilaktik tədbirlər isə adıçəkilən prosesin ayrılmaz hissəsidir. Müzəffər ordumuzun tərkibindəki qoşun növləri, onların tərkibindəki hərbi hissələrdə silah və texnikanın mövsümə (yaz-yay və payız-qış) uyğun istismar dövrünə keçirilməsi məqsədilə kompleks tədbirlər həyata keçirilir. Belə olan halda da 2026-cı il üçün təsdiq olunmuş hazırlıq planına əsasən, Azərbaycan Ordusunda silah, döyüş, eləcə də xüsusi texnikalar yaz-yay mövsümündə istismar rejiminə keçirilməsi ilə əlaqədar kompleks tədbirlərin həyata keçirilməsi başa çatıb. Həyata keçirilən tədbirlər çərçivəsində ordu sıralarına yeni qoşulan hərbi qulluqçulara texnikanın mövsümə uyğun istismarı və texniki qulluq qaydaları öyrədilib, təhlükəsizlik tədbirləri üzrə tələblər çatdırılıb, eləcə də hərbi hissələr mərkəzləşdirilmiş qaydada zəruri ehtiyat hissələri və avadanlıqlarla tam təmin edilib. Hərbi hissələrin parklarında yaradılan texniki xidmət məntəqələrində silah və texnikaların fasiləsiz, dayanıqlı istismarını təmin etmək məqsədilə elektrik sistemlərinin vəziyyəti yoxlanılıb və iqlimə uyğun yanacaq-sürtkü materialları dəyişdirilib.

Yaz-yay mövsümünə keçidin başlanması ilə hava və iqlim şəraitində baş verən dəyişikliklər hərbi texnikanın istismar qaydalarına da öz təsirini göstərir. Qış aylarında istifadə olunan yağlayıcı materiallar, soyuducu mayelər və digər texniki vasitələr isti hava şəraitində öz funksionallığını tam təmin etmədiyindən onların dəyişdirilməsi vacib hesab olunur. Bu səbəbdən də hərbi hissələrdə silah və texnikanın mövsümi baxışı xüsusi plan əsasında təşkil edilir. Bu çərçivədə texnikalara mövsümi qulluq göstərilir, onların texniki vəziyyəti yoxlanılır və qarşıda duran tapşırıqların icrasına tam hazır vəziyyətə gətirilir.

Hərbi texnikaların yaz-yay istismar dövrünə keçirilməsi zamanı mühərrik sistemləri, transmissiyalar, elektrik avadanlıqları və soyutma sistemləri diqqətlə yoxlanılır. Eyni zamanda, maşınların texniki sazlığı test edilir, aşkar edilən nasazlıqlar yerindəcə aradan qaldırılır. Təmir-bərpa bölmələrinin mütəxəssisləri tərəfindən həyata keçirilən texniki xidmət tədbirləri texnikanın uzunömürlü və etibarlı fəaliyyətinə xidmət edir.

Silahların texniki baxışı da prosesin əsas istiqamətlərindən biridir. Atıcı silahların mexanizmləri təmizlənir, qoruyucu yağlarla işlənir və funksional vəziyyəti yoxlanılır. Xüsusilə döyüş növbətçiliyində istifadə olunan silahların tam saz vəziyyətdə saxlanılması daim diqqət mərkəzindədir. Çünki hər bir silahın etibarlı fəaliyyəti şəxsi heyətin təhlükəsizliyi və döyüş tapşırıqlarının uğurla yerinə yetirilməsi baxımından mühüm rol oynayır.

Məlumdur ki, hərbi hissələrdə günün nizam qaydasına uyğun olaraq həftənin müəyyən günlərində təmizlik, abadlıq işlərinin tərkib hissəsi kimi, park-təsərrüfat günləri keçirilir. Texnikanın istifadəyə hazır olması döyüş hazırlığına təsir



edən əsas məsələlərdən biri olduğu üçün verilən tapşırığın yerinə yetirilməsində vaxt və nəticə etibarilə də bu amil vacib hesab olunur. Bunun üçün də təhkim olunmuş silah, texnika və hərbi vasitənin istifadəyə maneəsiz hazır olmasını təmin etmək üçün ona zəruri texniki qulluq da göstərmək mütləqdir.

Mövsümi qulluq tədbirlərinə yalnız texniki xidmət deyil, həm də şəxsi heyətin maarifləndirilməsi daxildir. Təlimatlar əsasında keçirilən məşğələlərdə hərbi qulluqçulara mövsümün tələblərinə uyğun texnikanın düzgün istismar və qulluq qaydaları izah olunur. Onlara müvafiq detalların zəruri temperatur şəraitində işləmə xüsusiyyətləri, texniki təhlükəsizlik qaydaları barədə ətraflı məlumat verilir.

Bundan əlavə, texnikaların saxlanıldığı park və anbarlarda da müvafiq hazırlıq işləri görülür. Saxlama şəraitinin normativ tələblərə uyğunlaşdırılması, havalandırma sistemlərinin yoxlanılması və yanğın təhlükəsizliyi tədbirlərinin gücləndirilməsi diqqətdə saxlanılır. Məqsəd hərbi əmlakın qorunmasını təmin etməklə yanaşı, onun istənilən anda istifadəyə hazır vəziyyətdə saxlanılmasıdır.

Mütəxəssislər bildirirlər ki, mövsümi qulluq tədbirləri texnikanın sıradan çıxma riskini minimuma endirir və qəfil nasazlıqların qarşısını alır. Bu isə öz növbəsində həm maddi resurslara qənaət edilməsinə, həm də döyüş hazırlığının fasiləsiz təmin olunmasına şərait yaradır. Xüsusilə müasir döyüş şəraitində texnikanın operativ və etibarlı fəaliyyəti ordunun əsas üstünlüklərindən biri hesab olunur.

Hərbi hissələrdə aparılan mövsümi texniki xidmət işləri yuxarı komandanlıq tərəfindən ciddi nəzarətdə saxlanılır. Müxtəlif yoxlama qrupları texnikaların vəziyyətini qiymətləndirir, texniki qulluq prosesinin keyfiyyətinə nəzarət edir. Qarşıya qoyulan əsas məqsəd bütün silah və texnikanın yay mövsümündə yüksək etibarlılıqla fəaliyyət göstərməsini təmin etməkdir.

Qeyd edilməlidir ki, orduda hərbi-texniki təminat və təchizat vasitələri daim dövrün tələblərinə uyğun olaraq təkmilləşdirilir. Yeni texnologiyaların tətbiqi, müasir vasitələrin istifadəsi və mütəxəssis hazırlığının tələblərə uyğun artırılması nəticəsində texniki xidmət tədbirləri daha effektiv şəkildə həyata keçirilir. Bu isə ordumuzun döyüş qabiliyyətinin gücləndirilməsinə mühüm töhfə verir.

Silah və texnikanın qorunub daim istifadəyə yararlı vəziyyətdə saxlanılması, ona vaxtında texniki qulluq göstərilməsi ordunun döyüşəparma və özünümüdafiə qabiliyyətinə təsir göstərən əsas aspektlərdəndir. Hərbi qulluqçularımız onlara təhkim olunmuş silah və texnikaya qulluğun göstərilməsi üçün ordumuzda fəaliyyətlər planına uyğun olaraq kompleks tədbirlər görülür ki, bu iş özlüyündə yuxarı komandanlığın nəzarəti altında olan fəaliyyətlərdəndir. Adıçəkilən işlərin görülməsində əsas məqsəd ordumuzun qarşısında duran vəzifə və tapşırıqların icrasında fəaliyyətin tam, dəqiq, operativ və fasiləsiz təşkil olunmasını təmin etməkdir.

Mövsümə uyğun olaraq silah və texnikanın istismar dövrünə keçirilməsi ilə bağlı baş tutan kompleks tədbirlər bir daha sübut edir ki, orduda döyüş hazırlığının yüksək səviyyədə qorunub saxlanılması istiqamətində bütün zəruri addımlar atılır. Texnikanın, silahın varlığına və sazlığına göstərilən diqqət şəxsi heyətin bilik, bacarığı və məsuliyyət hissi ilə birləşərək ordunun hərbi potensialını və dayanıqlılığını daha da artırır.

**Kapitan**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

# Şəhidlərimizin xatirəsinə həsr olunan anım tədbirləri keçirildi






*Ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan Ələsgər Əsgərov, Zülfü Rzayev, İman Alməmmədov, Sahil Cəlilov və Kamal Əbilovun xatirəsinə həsr olunan anım tədbirləri keçirilib.*

Tədbirlərdə Naxçıvan şəhər İcra Hakimiyyətinin, Əlahiddə Ümumqoşun Ordunun, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşları, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları, şəhid ailələri və ictimaiyyətin nümayəndələri, eləcə də digər qonaqlar iştirak ediblər.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, şəhidlərimizin məzarları ziyarət edilərək üzərinə gül dəstələri düzülüb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edənlər şəhidlərimizin həyat və xidmət yolundan, döyüş əməliyyatları zamanı göstərdikləri şücaət nümunələrindən bəhs edərək, onların igidliyinin gənc nəsil üçün nümunə olduğunu vurğulayıblar. Qeyd olunub ki, xalqımız və dövlətimiz şəhidlərimizin xatirəsini daim uca tutur və onların göstərdiyi qəhrəmanlıq gənc nəslə örnəkdir. Vurğulandı ki, qəhrəman Azərbaycan oğulları öz canları bahasına torpaqlarımızın azadlığını təmin edərək xalqımıza qələbə sevincini yaşadıblar.

Şəhidlərimizin ailə üzvləri və yaxınları onlara göstərilən diqqət və qayğıya, eləcə də



şəhidlərimizin xatirəsinin daim uca tutulmasına görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, həmçinin Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.



* * *

Şəhid Ələsgər Əsgərov 12 may 1997-ci ildə Naxçıvan şəhərində anadan olub. Orta təhsilini Naxçıvan şəhəri Hüseyn Cavid adına 5 nömrəli tam orta məktəbdə aldıqdan sonra Sumqayıt Dövlət Universitetində ali təhsil alıb.

Ələsgər Əsgərov 2023-cü ilin 19-20 sentyabr tarixlərində həyata keçirilmiş antiterror əməliyyatı zamanı Xocavənd istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərdiyinə, xidməti vəzifələrini və qarşıya qoyulmuş tapşırıqları layiqincə yerinə yetirdiyinə görə Ələsgər Əsgərov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olunub.

* * *

Şəhid Zülfü Rzayev 1993-cü il mayın 9-da Şahbuz rayonunun Külüs kəndində anadan olub. 1999-2007-ci illərdə Külüs kənd tam orta məktəbində, 2007-2010-cu illərdə Heydər Əliyev adına Hərbi Liseydə, 2010-2014-cü illərdə isə indiki Heydər Əliyev adına Hərbi İnstitutda təhsil alıb. 2015-ci ildən Azərbaycan Ordusunun "N" hərbi hissəsində xidmətə başlayıb.

Şəhid zabit 2016-cı ilin Aprel döyüşlərində iştirak edib və göstərdiyi igidliyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə "İgidliyə görə" medalı ilə təltif olunub. O, Vətən müharibəsinin ilk günündə - 27 sentyabr 2020-ci il tarixində Füzuli istiqamətində gedən döyüşlər zamanı şəhidlik zirvəsinə ucalıb.

* * *

Şəhid İman Alməmmədov 17 may 1999-cu ildə Şahbuz rayonunun Kolanı kəndində anadan olub. Orta təhsilini Kolanı və Babək rayonunun Vayxır kənd məktəblərində alıb. Hərbi xidmətdən sonra müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətini davam etdirib.

O, 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində iştirak edərək Füzuli, Xocavənd və Xocalının yaşayış məntəqələrinin azadlığı uğrunda gedən döyüş əməliyyatlarında iştirak edib. Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə xüsusilə fərqlənib və 9 noyabr 2020-ci ildə Şuşada döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

İman Alməmmədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

* * *

Şəhid Sahil Cəlilov 17 may 1998-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Dərvişlər kəndində anadan olub. Orta təhsilini Dərvişlər kənd tam orta məktəbində alan Sahil 2016-2018-ci illərdə həqiqi hərbi xidmətdə olub. 2019-cu ildə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu olaraq orduda xidmətə başlayıb.

Sahil Cəlilov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və ölkəmizin ərazi bütövlüyünün bərpa olunması uğrunda başlayan Vətən müharibəsində iştirak edib. Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüş əməliyyatlarında şücaət göstərib. O, 21 oktyabr 2020-ci ildə Xocavənd rayonunun Tuğ kəndi istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhidlik zirvəsinə ucalıb.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qo-



yulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, Sahil Cəlilov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilib.

* * *

Şəhid Kamal Əbilov 1996-cı ilin mayında Şərur rayonunun Oğlanqala kəndində dünyaya göz açıb. 2004-cü ildə Oğlanqala kənd tam orta məktəbində ilk təhsilinə başlayan Kamal 2011-ci ildə hərb sənətinin təməl biliklərinə yiyələnmək üçün Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunub.

2014-cü ildə bu təhsil ocağını bitirən Kamal Əbilov Bakıya yollanıb. Burada indiki Heydər Əliyev adına Hərbi İnstituta qəbul olaraq kursant kimi təhsilini davam etdirib.

2018-ci ildə təhsil ocağını bitirən Kamal "N" hərbi hissəsində xidməti fəaliyyətə başlayıb. Leytenant Kamal Əbilov Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak edib və sentyabrın 30-da şəhidlik zirvəsinə yüksəlib. Şəhidimiz Şərur şəhəri Şəhidlər xiyabanında dəfn edilib.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, Kamal Əbilov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

**Bəxtiyar ƏLİYEV**
**"Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin mətbuat katibi**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Suallar:**

1. Müasir cəmiyyətdə dinin rolu və yeri.
2. Azərbaycanda islami dəyərlərin bərpası.
3. Azərbaycan Respublikası dini tolerantlıq nümunəsidir.

**Mövzu:** Müasir cəmiyyətdə dinin rolu və yeri. Azərbaycanda islami dəyərlərin bərpası. Azərbaycan Respublikası dini tolerantlıq nümunəsidir.

### Müasir cəmiyyətdə dinin rolu və yeri

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, din dövlətdən, dövlət də dindən ayrıdır. Buna görə də dövlətin sosial, siyasi, iqtisadi və hüquqi fəaliyyətini müəyyən edən qanunlar qəbul edilərkən, dinin bu mövzudakı əmr və qadağalarına görə deyil, sosial ehtiyaclara görə edilir. Dövlət quruluşunun əsası olan dünyəvilik din və vicdan azadlığını dövlət tərəfindən təminat altına alır. Belə ki, o zaman həqiqi din azadlığı ancaq dünyəvi bir dövlətdə reallaşa bilər. Çünki ancaq belə bir dövlətdə vətəndaşlar heç bir müdaxilə olmadan öz dinlərini seçə bilərlər. Dünyəvi bir dövlətdə din azadlığı, hər hansı bir dinə inanma və onun ibadətlərini yerinə yetirmə azadlığını təmin etdiyi kimi, vətəndaşların heç bir dinə inanmama və heç bir dinin ibadətlərini yerinə yetirməmə azadlığını da təmin edir. Dövlətin vətəndaşı ilə münasibəti dini və ideoloji deyil, ədalət çərçivəsində olmalıdır. Dövlətin əsas vəzifəsi, ədaləti, daxili və xarici təhlükəsizliyi təmin etmək, vətəndaşların haqq və azadlıqlarına əngəl olan problemləri aradan qaldırmaqdır. Bu səbəbdən də, dövlət bu gün ölkənin gələcəyi üçün lazım olan tədbiri görməkdədir. Yəni, vətəndaşlarını və cəmiyyəti zərərli, fanatik və radikal dini-siyasi qrup və təşkilatlardan qoruyur. Bu istiqamətdə dövlətin sekulyar dəyərləri və prinsipləri daha kəskin və aydın qoyulur.

Azərbaycan Respublikasında din-dövlət, eyni zamanda, cəmiyyət-dövlət münasibətləri milli-mənəvi dəyərlərlə yanaşı, həm də universal və multikultural dəyərlərə əsaslanan azərbaycançılıq ideologiyası kontekstində tənzimlənir. Bu baxımdan, cəmiyyətə sağlam təfəkkürlü vətəndaş qazandırmaq üçün dərin dini-fəlsəfi dünyagörüşünə, bədii-etik təfəkkürə və yüksək estetik zövqə malik olan insan yetişdirmək lazımdır. Belə ki, bu da dövlətin düşünülmüş, planlı və uzaqgörən siyasətinə əsaslanan proqramın tərtib olunmasına və onun həyata keçirilməsinə bağlıdır. İnanmaq lazımdır ki, əgər dövlət vətəndaşını və ölkənin gələcəyini düşünərək, bütün bunları sistemli şəkildə həyata keçirərsə, gələcəkdə cəmiyyətdə problem və təhlükə yaradan radikal, fanatik fərdlər ortaya çıxmaz. Əks-təqdirdə isə dini ehtiyac və tələblər qeyriləri tərəfindən təmin edilərsə, o zaman cəmiyyətdə daha da radikal, fanatik və cəmiyyət üçün təhlükə yaradan qüvvələr və fərdlər ortaya çıxa bilər.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev cəmiyyətdə dinin böyük rolu və yeri olduğunu öz çıxışında belə qeyd etmişdir: "Dinin cəmiyyət həyatında, xüsusən də gənclərin mənəvi-əxlaqi tərbiyəsində yeri və rolu düzgün istiqamətləndirilməli, mütərəqqi islami dəyərlərin təbliqi və təşviqi müasir tələblər səviyyəsində aparılmalı, dindən siyasi məqsədlər üçün istifadəyə yol verilməməlidir. Bütün bunlar müasir mərhələdə Azərbaycan Respublikasının daxili və xarici siyasətinin, demokratik dünya birliyi ilə əməkdaşlıq münasibətlərinin prioritet xəttini təşkil edir. Ölkəmiz bu sahədə nüfuzlu beynəlxalq və regional təşkilatlarda, o cümlədən İslam Əməkdaşlıq Təşkilatında uğurla fəaliyyət göstərir. Son illərdə MDB Dinlərarası Şurasının, MDB müsəlmanlarının Məşvərət Şurasının, Qafqaz xalqları Ali Dini Şurasının toplantılarının, xüsusən dünya dini liderlərinin sammitlərinin Bakıda keçirilməsi respublikamızdakı dini sabitliyi, tolerantlıq mühitini, əqidə və ifadə azadlığını bütün dünyaya bir daha bariz şəkildə nümayiş etdirmişdir. Azərbaycan dövləti dinlərarası dialoqun dinamik inkişafına müsbət təsir göstərən bütün səyləri bundan sonra da dəstəkləyəcəkdir".

### Azərbaycanda islami dəyərlərin bərpası

Respublikamızda dünyəvi dövlət şəraitində dövlət-din münasibətlərinin tənzimlənməsi, dini-mənəvi dəyərlərin pozitiv potensialından səmərəli və məqsədyönlü istifadə olunması ilə bağlı görülən böyük işlərin mahiyyətini düzgün başa düşmək üçün müstəqillik dövrünün ilk illərində ölkənin dini durumuna ani olsa da, nəzər salmaq labüddür. Milli müstəqilliyin ilk illərində Azərbaycan cəmiyyəti üçün həyatın bütün sahələrində olduğu kimi, din sahəsində də müəyyən pərakəndəlik səciyyəvi idi, 70 illik sovet rejimi dövründə insanların zehnindən dini sıxışdırıb çıxarmaq məqsədilə çox iş görülmüşdü. İfrat dərəcədə ideolojiləşdirilmiş stereotiplər bütövlüklə materialist dünyagörüşünə əsaslanan əxlaqi tərbiyə sistemi yaradılmasına yönəldilmişdi. Bu sistem insanlara öyrədirdi ki, "Allah yoxdur, din mövhumat və xürafatdan başqa bir şey deyildir, axirət inancı yanlış inancdır, ancaq dünya həyatı var və insan öləndən sonra hər şey bitir". Sovet dövründə yaşayıb-böyümüş insan bu vaxta qədər alışmış olduğu ictimai yönümünü itirdi - çaşıb qaldı, nə edəcəyini bilmədi. Bəzilərində bu hal daha kəskin xarakter aldı. Vəziyyətdən sui-istifadə etmək istəyənlər də az olmadı. Ölkədə qeyri-ənənəvi dinləri, destruktiv sektaları yaymaq məqsədi güdən bir sıra xarici missioner təşkilatların fəaliyyəti geniş vüsət aldı. Erməni təcavüzü nəticəsində ölkə ərazisinin böyük bir hissəsinin işğal edilməsi, bir milyonluq qaçqın və köçkünlər ordusunun yaranması ilə bağlı sosial gərginlik şəraitində bu hal, həqiqətən, cəmiyyətimizin, xalqımızın gələcəyi, onun müasir millətlər toplusuna daxil olması yolunda ciddi əngəllər törədirdi. Din ölkədə müxtəlif siyasi qüvvələrin süni surətdə yaratdığı qarşıdurmaya cəlb edilir, ayrı-ayrı bölgələrdə özünü göstərən separatizm cəhdlərində ortaya atılan şüarlarda dindən siyasi məqsədlərlə istifadə etmək meyli, dini dözümsüzlük, ayrı-seçkilik əhval-ruhiyyəsi özünü büruzə verirdi. 1992-ci ildə tələsik, bölgədə dinin yayıldığı tarixi şəraiti tam nəzərə almadan hazırlanmış "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi də dini durumda dövlət nəzarətini təmin edib, köklü dəyişiklik yarada bilmədi. Əksinə, əcnəbilər, vətəndaşlığı olmayan şəxslər, müxtəlif missioner təşkilatları qanundan və xüsusilə orada olan boşluqlardan istifadə edərək insan haqları və əsas azadlıqlar adı altında, hətta milli təhlükəsizlik və ictimai asayiş tələblərinə cavab verməyən dini firqələrin ölkəmizə və millətimizə yad inancların yaymağa başladılar. Bir çox dini icma xaricdəki dini mərkəzlərin və missioner təşkilatlarının ölkədə təbliğçilərinə çevrilmişdi. Azərbaycan Respublikasında dərin köklərə malik olmayan qeyri-ənənəvi dinlər geniş təbliğ edilirdi. Dini durumda tam aşkar olmasa da, qeyri-stabillik meylləri özünü göstərir, radikallaşma prosesi canlanır və beləliklə, ümumi stabillik və hətta dövlətçilik üçün təhlükə notları səslənirdi.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev xalqın təkidi ilə yenidən hakimiyyətə qayıdanda cəmiyyətin dinə bağlılıq durumu mürəkkəb və ziddiyyətli idi. Yalnız Ulu Öndər Heydər Əliyev öz dərin biliyi, yüksək bacarığı, mətin iradəsi, böyük idarəçilik təcrübəsi, düzgün və uzaqgörən siyasəti sayəsində dövlət-din münasibətlərini inzibatçılığa yol vermədən, məqbul beynəlxalq standartlara müvafiq şəkildə öz təbii məcrasına qaytara bilər, dövlətin strateji xəttinə əsasən, tənzim edə bilərdi. İlk növbədə, din-dövlət münasibətlərində yaranmış uçurum aradan götürülməli, qarşılıqlı inam bərpa olunmalı, dövlətin antidin, ateist siyasəti yeritməməsinə insanları inandırmalı, dinin, həqiqətən də, milli-mənəvi dəyərlərdə yerini müəyyən etmək tələb olunurdu. Hər şeydən əvvəl vəziyyətdə köklü dəyişiklik yaratmaq üçün problemə münasibət bildirməklə yanaşı, qanuni zəmin hazırlamaq lazım idi. Bu məqsədlə "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununda müəyyən dəyişikliklər edildi, bəzi maddələr ləğv, bəzisinə isə əlavələr edildi.

Ulu Öndər məscidlərə gedir, dini münasibətlərlə keçirilən mərasimlərdə iştirak edir, dindarlarla görüşür, dövlətin strateji xəttini özü şəxsən izah etməyə çalışırdı. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev çıxışlarının birində bildirirdi ki, Azərbaycanın strateji yolu demokratik, hüquqi, dünyəvi dövlət quruculuğundan keçir. Əlbəttə, dünyəvi dövlətçilik prinsipi dövlətin dindən ayrılığını nəzərdə tutur. Lakin vətəndaş, bütövlükdə isə xalq və millət dindən ayrı deyildir. 1-2 oktyabr 1998-ci ildə Bakıda keçirilən "Müasirlik və dini-mənəvi dəyərlər" adlı Beynəlxalq konfransda Ulu Öndər Heydər Əliyev dünyəvi dövlətdə etiqad azadlığı prinsipini daha geniş açıqlayaraq demişdir ki: "Dövlətimiz insanlara bütün azadlıqları vermiş və vicdan azadlığını, din azadlığını öz siyasətinin əsas hissəsi hesab etmişdir. Azərbaycan Respublikasının Konstitusiyası din və vicdan azadlığını təsbit etmiş, biz isə bir dövlət kimi bunun təmin olunmasının qarantıyıq. Bəli, ona görə də bizim dövlətimiz dünyəvi dövlətdir. Ancaq biz dindən ayrı deyilik". Bu gün Azərbaycanda dini zəmində münaqişələrin olmaması insanların sərbəst olaraq öz əqidə formasını seçməsi, dini dözümlülük və tolerantlıq şəraitinin yaradılması, bu uğurların bir çox beynəlxalq təşkilatlar, dünyada nüfuzlu din xadimləri və böyük ölkələr tərəfindən etiraf olunması Ulu Öndərin dini sahədə balanslaşdırılmış siyasət yürütməsinin və həmin siyasətin bu gün davam etdirilməsinin nəticəsidir.

Roma papası Fransisk 2016-cı ilin oktyabr ayında "Hamımız qardaşıq" şüarı altında ölkəmizə səfərdə olarkən demişdi: "Azərbaycan üç müxtəlif dinin dinc, yanaşı yaşadığı nadir bir ölkə və dini dözümlülük baxımından sabit cəmiyyətdir". Bu stabillik gərgin əməyin, ölçülüb-biçilmiş çox incə bir siyasətin və möhkəm iradənin nəticəsidir. Bu milli adət-ənənələrə, mənəvi-dini dəyərlərə ölkə rəhbərliyinin münasibəti fonunda yaranmış əlverişli şəraitin təbii təzahürüdür.

### Azərbaycan Respublikası dini tolerantlıq nümunəsidir

Azərbaycan xalqı olduqca mühüm və bəşəriyyətə nümunə olan mənəvi keyfiyyətlərə malikdir. Bunlardan biri də əsrlərdən bəri formalaşaraq inkişaf edən, xalqımızın humanist dünyagörüşünü özündə əks etdirən multikultural və tolerant dəyərlərdir. Təsadüfi deyil ki, tarixin bütün dönəmlərində bu coğrafiyada müxtəlif etnoslar, xalqlar, ayrı-ayrı dinlərə sitayiş edən insanlar əmin-amanlıq, mehriban qonşuluq şəraitində yaşamışlar.Tarixin bütün dövrlərində dünyanın demək olar ki, hər bir tərəfində milli və dini zəminlərdə qarşıdurmalar baş vermiş, insanlığa, bəşəriyyətə qarşı ağır cinayətlər törədilmişdir. Lakin dövlətimizdə yaşayan xalqlar arasında heç vaxt milli-etnik və dini zəmində ədavət baş verməmiş, bu məqsədlə kənardan edilən cəhdlər iflasa uğramışdır.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Ulu Öndər Heydər Əliyevin uzaqgörən və müdrik siyasəti nəticəsində ölkəmizdə mədəniyyətlər və dinlərarası dialoq keyfiyyətcə yeni mərhələyə yüksəldildi, multikulturalizm və tolerantlıq ənənələrinin qorunub saxlanmasına, inkişaf etdirilməsinə hüquqi zəmin yaradıldı. Ən əsası, bu, dövlət siyasətinin ayrılmaz tərkib hissəsinə çevrildi. Ulu Öndərin müəllifi olduğu Azərbaycan Konstitusiyasında ölkəmizdə dinindən, irqindən, dilindən asılı olmayaraq hər bir vətəndaşın hüquq və azadlıqları, o cümlədən insanların etiqad azadlığı təsbit olundu. Respublikamızda yaşayan hər bir etnik azlığın, hər bir xalqın təmsilçilərinin mədəniyyətinin, dəyərlərinin müxtəlif qanunlar və normativ-hüquqi aktlarla təsbit edilməsi, mükəmməl qanunvericilik bazasının formalaşdırılması və digər bu kimi mühüm addımlar da aparılan bu məqsədyönlü siyasətin tərkib hissəsidir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi altında xalqımızın multikultural və dini-mənəvi dəyərlərinin qorunması, inkişaf etdirilməsi sahəsində həyata keçirilən siyasət yeni mərhələdə onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. Dövlət başçısı mütəmadi olaraq ölkəmizdə yaşayan xalqların, dini icmaların nümayəndələri ilə görüşür, onların ehtiyac və problemləri ilə maraqlanır, milli və dini bayramlarını təbrik edir.

(Ardı 8-ci səhifədə)

# Xəbərlər: hadisələr, faktlar




## Türkiyə NATO üçün Rumıniyaya kimi uzanan yanacaq kəmərinin tikilməsini təklif edib

Rumıniyanın "Stirile ProTV" televiziya kanalı Agerpres agentliyinə istinadla xəbər verir ki, Türkiyə NATO-nun şərq cinahının enerji və logistika təhlükəsizliyini gücləndirmək məqsədilə Rumıniyaya qədər uzanacaq hərbi yanacaq kəmərinin tikintisini təklif edib.

Layihə Türkiyədən başlayaraq Bolqarıstan üzərindən Rumıniyaya qədər uzanan yeni yanacaq marşrutunun yaradılmasını nəzərdə tutur. Kəmərin NATO qüvvələrinin regiondakı hərbi bazalarının və logistika mərkəzlərinin yanacaq təminatında mühüm rol oynaya biləcəyi bildirilir.

Qeyd olunur ki, təşəbbüs NATO-nun Avropadakı mövcud Yanacaq Kəmərləri Sisteminin şərq istiqamətində genişləndirilməsi planları çərçivəsində müzakirə edilir. Layihənin dəyərinin təxminən 1,2 milyard dollar olduğu bildirilir.

Ekspertlərin fikrincə, Qara dəniz regionunda təhlükəsizlik risklərinin artması fonunda Rumıniya NATO üçün əsas logistik və strateji mərkəzlərdən birinə çevrilir. Türkiyənin irəli sürdüyü marşrutun həm iqtisadi, həm də hərbi baxımdan daha əlverişli variant hesab olunduğu vurğulanır.

## Səudiyyə Ərəbistanı hava məkanına daxil olan üç dronu ələ keçirib



Səudiyyə Ərəbistanının hava hücumundan müdafiə qüvvələri İran tərəfindən buraxıldığı bildirilən üç hücum dronunu ələ keçirib.

Bu barədə Səudiyyə Ərəbistanı Müdafiə Nazirliyi məlumat yayıb.

Açıqlamada deyilir: "Səudiyyə Ərəbistanının hava məkanına daxil olduqdan sonra üç dron ələ keçirilərək məhv edilib".

Nazirliyin sözçüsü general-mayor Turki Al-Malikinin bildirdiyinə görə, dronların İraq ərazisindən buraxıldığı ehtimal olunur.

O əlavə edib ki, Səudiyyə Ərəbistanı "uyğun vaxtda və yerdə cavab vermək hüququnu özündə saxlayır" və ölkənin suverenliyi və təhlükəsizliyinə qarşı cəhdlərin qarşısını almaq üçün bütün zəruri tədbirləri görəcək.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(Əvvəli 7-ci səhifədə)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının Azərbaycan multikulturalizminin və tolerantlığının elmi əsaslarla öyrənilməsi, həmçinin dünyada təbliği istiqamətində göstərdiyi konkret hədəflərə çatmaq üçün atılan əməli addımlar öz bəhrəsini verməkdədir. 2016-cı ilin ölkəmizdə "Multikulturalizm İli" elan olunması bu sahəyə diqqəti daha da artırır və eyni zamanda, dünyanı alternativi olmayan multikulturalizm və tolerantlıq siyasətindən daha effektiv şəkildə faydalanmağa dəvət edir.

Azərbaycan Respublikasında yaşayan bütün millətlərin və dinlərin nümayəndələrinin dövlətçiliyimiz naminə daim həmrəylik nümayiş etdirmələri xalqımızın yüksək multikultural və tolerant dəyərlərə malik olmasının bariz nümunəsidir. Ölkəmizin inkişafı, qüdrətlənməsi ilə yanaşı, ərazi bütövlüyümüzün bərpa olunmasında və qorunmasında da burada yaşayan bütün xalqların və dinlərin nümayəndələri hər zaman qəhrəmanlıq və vətənpərvərlik nümunələri ortaya qoyublar. Azərbaycan Respublikasının Ermənistan-Azərbaycan münaqişəsinin təsirinə məruz qalmış əraziləri işğaldan azad olunması və bir günlük antiterror əməliyyatı zamanı Azərbaycan Ordusunun apardığı hərbi əməliyyatlarda ölkəmizdə yaşayan azsaylı xalqların nümayəndələri də əsl qəhrəmanlıq nümunələri göstərdilər. Onların arasında şəhidlik zirvəsinə ucalanlar oldu. Bir daha təsdiq olundu ki, Azərbaycan Respublikasında yaşayan hər bir xalqın nümayəndəsi bu torpağı canı qədər sevir və uğrunda ölməyə hazırdır.

Dövlət, vətəndaşlarının dini-fəlsəfi dünyagörüşünün, bədii-etik təfəkkürün və estetik zövqün formalaşdırılması üçün düşünülmüş dövlət siyasəti həyata keçirir. Bu baxımdan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Bu gün multikulturalizm Azərbaycanda dövlət siyasətidir və eyni zamanda, həyat tərzidir" - deyərək multikulturalizmi Azərbaycanın dövlət siyasəti olmasını təsadüfən deyil, əksinə qədim dövrlərdən bu yana xalqımızın həyat tərzi kimi xarakterizə etmişdir. Çünki Azərbaycan xalqının milli-mənəvi dəyərlər sistemi tolerant münasibətlər içərisində birgə yaşayış ənənəsi Azərbaycan xalqının formalaşdığı bütün dövrlərdə müşahidə edilmişdir. Təbii ki, bu tendensiya Azərbaycan xalqının sahib olduğu dəyərlər sisteminin bütün nümunələrində əsas istiqamətlərdən biridir.

**İdeoloji Təminat İdarəsi**

# Hərbi texnikalar, silahlar

## "Predator Hawk" əməliyyat taktiki raket kompleksi ("PULS")



"Predator Hawk" yüksək dəqiqlikli idarəolunan raket sistemidir. Uzaq məsafələrdə düşmənin komanda və rabitə məntəqələri, logistika obyektləri, nəqliyyat şəbəkələri, qərargahlar, radio-elektron mübarizə məntəqələri, radar qurğuları və digər strateji əhəmiyyətli obyektlərinə zərbə endirmək imkanına malikdir.

370 mm çaplı "Predator Hawk" raketləri İsrailin "Elbit Systems" şirkəti tərəfindən istehsal olunub. "Predator Hawk" raket sistemi 50-300 kilometr məsafədəki hədəfləri dəqiqliklə vura bilir. Raketin hədəfdən yayınma ehtimalı 10 metrdən (CEP<10 m) azdır. Təxminən 5 metr uzunluğunda olan raket 140 kq-lıq döyüş başlığı ilə təchiz olunub. Raket səssürətli (supersonik) texnologiya ilə işləyir və 300 km məsafəni təxminən 8 dəqiqəyə qət edə bilir. "Predator Hawk" GPS, GLONASS və INS naviqasiya sistemləri ilə idarə olunur. Bir konteynerdə 2 ədəd olmaqla yerləşdirilən raketin çapı 370 mm, çəkisi isə 800 kq-dır. Raketin döyüş başlığının çəkisi 140 kq, atış məsafəsi 50-300 km, hədəfdən yayınma ehtimalı 10 metrdir. Raketin əməliyyat radiusu 300 kilometrdir.

**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan atıcısı Avropa çempionatında bürünc medal qazanıb



Xorvatiyanın Osijek şəhərində keçirilən Avropa çempionatında oğlanlar arasında dairəvi stend üzrə solo yarışlarda mübarizə aparan Azərbaycan atıcısı İslam Əjdərov fəxri kürsüyə qalxıb.

O, U-18 yaşadək idmançıların yarışının yarımfinal mərhələsində Macarıstan idmançısı Nimrod Peli ilə qarşılaşıb. Rəqibini üstələyən atıcı bürünc medal qazanıb.

## Azərbaycan cüdoçuları Rusiyadakı turnirdə 2 medal qazanıblar



Rusiyanın Xabarovsk şəhərində cüdo üzrə yeniyetmələr arasında Vasili Oşepkovun xatirəsinə həsr olunmuş beynəlxalq turnir keçirilib.

Azərbaycanı yarışda 5 idmançı təmsil edib. Komanda turniri 1 qızıl və 1 bürünc medalla başa vurub.

Polad Həsənli (81 kq) bütün görüşlərdən qalib ayrılaraq qızıl medalın sahibi olub. Zaməddin Bağırov (66 kq) isə fəxri kürsünün üçüncü pilləsində yer alıb.

Turnirdə 13 ölkədən 300-dək cüdoçu mübarizə aparıb.

## Sərbəst güləş üzrə Azərbaycan millisi Avropa çempionatını 7 medalla başa vurub




Bolqarıstanın Samokov şəhərində keçirilən güləş üzrə U-17 Avropa çempionatı sona çatıb.

Yarışın sonuncu - yeddinci günündə sərbəst güləş üzrə Azərbaycan millisi 2 medal qazanıb.

Tunar Həsənov (45 kq) bürünc medal qarşılaşmasında türkiyəli Buğra Eldemirə 5:2 hesabı ilə qalib gələrək qitə birinciliyini üçüncü pillədə başa vurub.

İbrahim Həsənov (51 kq) finalda türkiyəli Məhəmməd Qolha üzərində inamlı qələbə (11:3) qazanaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Elgün Kərimli (92 kq) təsəlliverici görüşdə belaruslu Timur Mirzəyevə tam üstünlüklə (11:1) qalib gəlsə də, üçüncü yer uğrunda mübarizədə gürcüstanlı Nurəddin Mustafayevə məğlub olub - 0:8.

Beləliklə, millimiz Avropa çempionatını 3 qızıl, 1 gümüş və 3 bürünc medalla başa vurub.

**AZƏRTAC-ın materialları əsasında**

---

Leytenant İsmayılov Gəncəli Kazım oğluna verilmiş MN № 0059479 nömrəli, leytenant İsayev Salman İlqar oğluna verilmiş SQ № 0024121 nömrəli və leytenant Axundov Araz Əşrəf oğluna verilmiş MN № 0065683 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Gizir Məmmədli Ülvi Veysəl oğluna verilmiş SQ № 0024858 nömrəli, gizir Alıyev Vidadi Vaqif oğluna verilmiş SQ № 0025557 nömrəli və gizir Kərimov Afiq Yusif oğluna verilmiş SQ № 0025510 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

---

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları - baş çavuş Əsədov Xəyal Əbülfət oğluna verilmiş AD № 0015823 nömrəli, baş çavuş Vəliyev Nicat Vüqar oğluna verilmiş AD № 0013408 nömrəli, çavuş Sanıyev Orxan Çingiz oğluna verilmiş AD № 0018617 nömrəli, çavuş Əhmədov Ramin Sərdar oğluna verilmiş AD № 0008357 nömrəli, çavuş Rəhimov Sakit Tapdıq oğluna verilmiş AD № 0025869 nömrəli, kiçik çavuş Muradov Niyaməddin Zakir oğluna verilmiş AD № 0024221 nömrəli, kiçik çavuş Sadıqov Rahib Hümbət oğluna verilmiş AD № 0060183 nömrəli, kiçik çavuş İbrahimov Əfsun Asəf oğluna verilmiş AD № 0052733 nömrəli, kiçik çavuş Məmmədli Əflat Müşviq oğluna verilmiş AD № 0008531 nömrəli, kiçik çavuş Əsmətli Əliqismət Özbəy oğluna verilmiş AD № 0026027 nömrəli, kiçik çavuş Qasımov Dadaş Səhladar oğluna verilmiş AD № 0052334 nömrəli, kiçik çavuş Əhmədov İbrahim Məhəmmədəli oğluna verilmiş AD № 0050521 nömrəli, kiçik çavuş Alməmmədov Məhəmmədəli Fərman oğluna verilmiş AD № 0018358 nömrəli, əsgər Ağabalayev Zaur Nemət oğluna verilmiş AD № 0036380 nömrəli, əsgər Abdilov Ümid Firuddin oğluna verilmiş AD № 0051095 nömrəli, əsgər Ağasiyev Aqil Ceyhun oğluna verilmiş AD № 0046828 nömrəli, əsgər Abdullayev Gəray Ramiz oğluna verilmiş AD № 0023866 nömrəli, əsgər Tapdıqlı İmanverdi Əlixan oğluna verilmiş AD № 0043734 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

---

Kərimov Sadiq Etibar oğluna verilmiş MV № 142606 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Alıyev İlkin Əziz oğluna verilmiş MV № 134709 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Redaktor**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefon**
Müdafiə Nazirliyinin
Hərbi Nəşriyyatı üzrə növbətçi:
(012) 404-76-22

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
2 saylı Xəzinədarlıq
Kod: 200189
VÖEN: 1500444791

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
Hüsniyyə NƏSİROVA

Lisenziya № 361
Sifariş № 508
Nüsxə 3653